Ədalət.- 2020.-

Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 26 (2060) 3 mart 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

# "O dünyaya köçən dünyam..."

## Şahmar Əkbərzadəni xatırlayarkən

**Sərlövhəyə çıxarılan misranın müəllifi şair Şahmar Əkbərzadədir.**

**Mən Şahmarı ilk dəfə harada görmüşəm?**

Xatırlayıram, ötən əsrin 70-ci illərinin əvvəllərində böyük şairin adını daşıyan bağda ənənəvi Sabir poeziya bayramının keçirildiyi günəşli bir yaz günü idi. Vaxtilə mənimlə BEMZ zavodunda birgə çalışmış, ixtisasca energetik-mühəndis olan, maraqlı şeirlər müəllifi, ciddi ədəbiyyat həvəskarı Lətif Quliyev bizə yaxınlaşan ucaboy, qaraşın, qıvrımsaç adamı mənimlə tanış etdi:

**-Bir-birinizlə yaxından tanış olun. Gələcəkdə bu tanışlıq dostluğa çevrilə bilər.**

Biz əl verib tanış olduq:

**- Firuz.**

**- Şahmar.**

Lətif ümumi tanışlıq üçün bizim "yaradıcılığımız" barədə müxtəsər məlumat da verdi. Mən o vaxtacan Şahmarın bir neçə şeirini oxumuşdum.

Yeni tanışım diqqətlə üzümə baxıb soruşdu:

**-Bəs sənin ədəbi imzan, familiyan necədir, dədə?**

**-Sadəcə Firuz Mustafayev, -deyə, cavab verdim.**

O, yenə israrla soruşdu:

**-Firuz Mustafazadə sən deyilsən ki?**

Ümumi dostumuz Lətif gülə-gülə söhbətə qarışdı:

**-Şahmar, düz tapmısan, elə həmin imzanın sahibi bu oğlanın özüdür ki var. Firuz hərdən öz yazılarını "Mustafazadə" imzası ilə çap etdirir. Yəni biləsən ki, sizin hər ikiniz "zadə"siz.**

Şahmar da güldü və böyük Sabirə, daha doğrusu onun qarşımızdakı heykəlinə işarə ilə dedi:

**-"Bəyzadələriz, xanzadələriz, qafqazlılarız"... -Və sonra əlavə etdi: -Dədə, Firuz Mustafazadə imzası mənə çıx yaxşı tanışdır. Hətta, bu yaxınlarda "Bakı" qəzetində Mustafazadənin bir "podporka"sını oxumuşdum. Çox bəyənmişdim. Nüsrət Kəsəmənlidən müəllifin kimliyini soruşanda demişdi ki, cavan bir oğlandır... Tanışlıqdan çox məmnun oldum. Lətif, sən də sağ ol ki, məni belə bir istedadlı qardaşla tanış elədin.**

Doğrudan da bu tanışlıq, zaman keçdikcə möhkəm dostluğa çevrilməyə başladı.

Biz sonra elə Sabir bağındakı məşhur çayxanada pürrəngi çay içə-içə müxtəlif mövzularda, ən çox da ədəbiyyat, habelə işığına toplaşdığımız Sabir və onun dərd dolu poeziyası barədə bir xeyli söhbət etdik. Sanki öz poetik günlərinin, öz bayramının iştirakçısı olan, bizdən beş-altı addım kənarda "dayanmış" böyük Sabir də o günkü söhbətimizi dinləyirdi...

Mən tələbə olarkən arada Şahmarla onun çalışdığı "Azərbaycan gəncləri" qəzetində görüşürdüm. Sonra iş elə gətirdi ki, təyinatla əvvəlcə Saatlı rayonuna müəllim işləməyə göndərildim, bir müddət sonra isə ərizə yazıb könüllü hərbi xidmətə getdim.

Hərbi xidmətdən tərxis olunduqdan sonra Bakıda uzun müddət özümə iş yeri tapa bilmədim. Həmin dövrdə radio, televiziya və qəzetlərə əməkdaşlıq edir, qonorar hesabına dolanırdım. Yalnız iki-üç ildən sonra vaxtilə Az.Tv-dən tanış olduğumuz yazıçı-publisist Yusif Kərimovun təklifi ilə "Azərbaycan gəncləri" qəzetinin "ədəbiyyat və incəsənət" şöbəsində ədəbi işçi kimi fəaliyyətə başladım. Şöbə müdirimiz şair Tofiq Mütəllibov idi. Az sonra həmin şöbə iki yerə bölündü. Publisistika şöbəsinə Şahmar, ədəbiyyat şöbəsinə Tofiq rəhbərlik edirdi. Hər iki şöbə iri bir otaqda yerləşirdi ki, orada da cəmi dörd əməkdaşı əyləşirdi- adını çəkdiyim şöbə müdirləri və həmin şöbələrin ədəbi işçiləri. Axırıncı "vəzifənin" daşıyıcıları, yəni ədəbi işçi Hidayət Elvüsal (Nağıyev) və mən idim. Hidayətlə mən maaş almırdıq, qonorarla kifayətlənməli olurduq.

İndi biz Şahmarla hər gün görüşürdük. Elə o vaxtdan etibarən bir-birimizə "dədə"- deyə, müraciət edərdik.

Bizim redaksiyadakı otağımıza kimlər gəlmirdi? Bəxtiya Vahabzadə, Hüseyn Arif, Arif Məlikov, Tofiq Bakıxanov, Xəyyam Mirzəzadə, Emin Sabitoğlu, Nəriman Həsənzadə, Əlfi Qasımov, Nahid Hacızadə, Həsən Turabov, Zəlimxan Yaqub, ...

Mən elə qəzetdə işlədiyim ilk ildə aspiranturaya daxil oldum. Rəsmən işimdən azad olunsam da redaksiyadakı masam uzun müddət, yəni 90-cı illərdə qəzet bağlanana qədər öz "nəzarətimdə" qaldı. Hətta Elmlər Akademiyasında istədiyim vaxtlarda belə, gedib orada yazı-pozumla məşğul olmaq imkanım öz "qüvvəsini" saxlamaqda idi. Redaksiyada mənim bir xeyli dost-tanışım çalışırdı. Amma Şahmarla dostluğumuzun xüsusi yeri vardı. Bizi bir-birimizə daha çox yaradıcılıq telləri bağlayırdı. Bir də görürdün ki, Şahmar cibindən çıxartdığı bir qalaq kağızı stolun üstünə səpələyib, eynəyini gözünə yaxınlaşdırdı, qələmini əlinə alıb gur səslə yeni yazdığı şeirlərdən birini oxumağa başladı.



O, demək olar ki, həmişə şeir oxumağa hazırlaşanda belə deyərdi:

**-Dədə, bax bu şeirin siftəsini sənə oxuyuram. Sən nə düzəliş etsən, mən ikiəlli razı olacam.**

Poeziyada Şahmarın orijinal üslubu, dəst-xətti vardı. Onun ünvanına kənd və şəhərlərdən, cavan və qocalardan çoxlu məktublar gələrdi. Oxucular ondan şeir istəyirdilər. Hətta, o da yadımdadır ki, Bəxtiya Vahabzadə öz dostunun bir neçə şeirini, o cümlədən "Dünya" şeirini əzbərdən deyərdi.

**Şahmaram, qüdrətim şahmar olmadı,**
**Müşküllər qarşımda naçar olmadı,**
**Zillətim zillətə düçar olmadı,**
**Tac qoydu içimdə zillətə dünya.**

O zamanlar Şahmarın "Mərkəzi poçtxana", "48 ölçülü qadın paltarı" şeirləri poeziyasevərlərin dilinin əzbəri idi.

**Geyimlər görəndə, ana, hər dənə**
**48 ölçüdə qalar gözlərim.**
**Cibim pullarımın qəbrinə dönər,**
**Titrəyər dizlərim, dolar gözlərim.**

Onun vətənpərvərlik hissi ilə yoğrulmuş misraları da tez-tez ekran və efirdə, gur məclislərdə səslənərdi. Onun ilham mənbəyi bu Vətən idi, təbii ki, bir də boya-başa çatdığı Qarabağ torpağı...

Şahmarın dostlarının əksəriyyəti özündən böyük, yaşlı adamlar idi: Bəxtiyar Vahabzadə, Nurəddin Rzayev, Xudu Məmmədov... Onun böyük qırğız yazıçısı Çingiz Aytmatovla da yaxın, doğma münasibəti vardı. Onu da xatırlayıram ki, 80-ci illərin ortasında Çingiz ağa Bakıya, Bəxtiyar müəllimin yubileyinə məhz Şahmarın təklifi, təkidi və təşəbbüsü ilə gəlmişdi.

Bizim Şahmarla bir neçə "şərikli", qoşa imza ilə yazılmış publisistik yazımız da çıxmışdı qəzetlərdə. Onun xüsusən xalq yaradıcılığı, el sənəti ilə bağlı yazıları geniş əks-səda doğururdu.

Bir dəfə Az.Tv-də ədəbi-dram verilişləri Baş redaksiyasının rəhbəri Nadid Hacızadə söhbət əsnasında mənə dedi:

**-Sənin tələbə dostun Tofiq Xəlilovun şöbəsində təzə veriliş açmışıq. Verilişin adı "Politra" olacaq. Sən öz yaşıdlarını, nisbətən cavan, istedadlı qələm sahiblərini məndən daha yaxşı tanıyarsan. O verilişi aparmaq üçün kimin namizədliyini təklif edərdin?**

Mən fikirləşmədən Şahmar Əkbərzadənin adını çəkdim. Nahid müəllim əlini ürəyinin üstünə qoyub ürəkdən güldü və dedi:

**-Hə, pis "kandidatura" deyil. Mən də Şahmarın şeirlərini çox bəyənirəm. Yəqin ki, gülməyimin də səbəbini özün yaxşı bildin.**

Əlbəttə, "səbəb" mənə də, (hətta, bildiyim qədər Şahmarın özünə də) yaxşı məlum idi. Bu barədə Nahid Hacızadə sonralar qələmə aldığı xatirələrdə yazırdı ki, bir dəfə çəkilişdən sonra çay içmək qərarına gəldik. Qonşu stolda çay dəsgahı qurulmuşdu. Oradakıların çoxu yazı-pozu adamları idi. Bizi də öz stollarına dəvət etdilər. Etiraz etmədik. Söhbət müasir poeziyadan düşdü. Oradakılardan biri dedi ki, indi yaxşı şeir, yaxşı şair yoxdur. Nahid müəllim sözünə davam edərək yazır: "Mənimlə üzbəüz oturmuş qıvrım saçlı, qaynar baxışlı kişi bu sözləri deyən adama çevrilib əsəbi : -Dədə,-dedi, -gərək insafı itirməyək. Söz deyəndə ehtiyatlı olaq..." Və qarşımdakı adam müasir poeziya haqda ətraflı, maraqlı bir söhbət elədi.

**(ardı növbəti sayımızda)**

**Firuz Mustafa**



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ DƏSTƏYİ İLƏ DƏRC OLUNUR